**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
**AZƏRBAYCAN ELMİ-TƏDQİQAT KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI VƏ TƏŞKİLİ İNSTİTUTU**

***Əlyazması hüququnda***

**RƏFAİL HÜSEYN OĞLU NİFTƏLİYEV**

# MÜASİR ŞƏRAİTDƏ KƏNDİN SOSİAL-İQTİSADİ İNKİŞAF PROBLEMLƏRİ
## (Naxçıvan MR timsalında)

**5312.01 – "Sahə iqtisadiyyatı"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**NAXÇIVAN – 2015**

Dissertasiya Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Elmi-tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Əmək potensalından istifadə və kəndin sosial infractruktur problemləri" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | **İsmayıl Muxtar oğlu Hacıyev**<br>AMEA-nın həqiqi üzvü |
| **Rəsmi opponentlər**: | **Gəncəli Əziz oğlu Gənciyev**<br>İqtisad elmləri doktoru, professor |
| | **Mehriban Mehdi qızı Mehdizadə**<br>İqtisad üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | Naxçıvan Dövlət Universitetinin<br>"İqtisadiyyat" kafedrası |

Müdafiə "_30__" "_05_______" 2015-ci il saat __-da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən FD. 01 211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az. 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" noyabr 2012-ci ildə göndərilmişdir.

**FD.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **E.A.Şıxəliyev**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi inkişaf meylləri, onun iqtisadi və sosial potensialının genişlənməsi və xüsusiyyətləri müasir şəraitdə ərazi idarəetmənin və sosial-iqtisadi amillərin səmərəli istifadəsini zəruriləşdirir. Müstəqillik şəraitində əldə olunan idarəetmə üstünlükləri və şəraitlər, hər bir sahə və ərazinin iqtisadi rolunu qiymətləndirməklə, onun daha intensiv istifadə yollarını, mexanizmlərini və qərarların qəbulunu tələb edir. Bu baxımdan Azərbaycan Respublikasında kəndin sosial-iqtisadi inkişaf problemlərini formalaşdırmaq və onun regional aspektlərini həll etməklə region-respublika əlaqələrini təkmilləşdirmək vəzifələri mühüm rol oynayır. Kəndin sosial iqtisadi inkişaf strategiyasının, mühüm qlobal və regional aspektlərinin, resurslar və uyğun mexanizmlərin müəyyən edilməsi xüsusi iqtisadi əhəmiyyət kəsb edir. Sosial-iqtisadi inkişafın kompleks şəraiti, tədqiqi və planlaşması, kəndin daxili və xarici amilləri, bir sıra qlobal idarəetmə və xarici ölkələrlə əlaqə prinsipləri ilə müəyyənləşir. Bu aspektlərin tədqiqi, dissertasiya mövzusu kimi nəzəri və praktiki əhəmiyyəti, yeniliyi və tədqiqat metodologiyasının təkmilləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Kəndin sosial-iqtisadi inkişaf strategiyası iqtisadi və sosial inkişaf kontekstindən ölçülür. Kəndin əhalisinin, istehsal və istehlak sferasının formalaşma xüsusiyyətləri, həyat tərzi və həyat səviyyəsi problemləri özünün meylləri və resurs mənbələrinin xarakterinə görə səciyyəvi olduğu üçün tədqiqat baxımından nəzəri elmi və praktiki əhəmiyyət kəsb edir. Hazırda regionda işsizlik səviyyəsinin azaldılmasında, kəndin sosial-iqtisadi inkişafında dövlətin rolunun daha da aktivləşdirilməsinə mühüm ehtiyac vardır.[1] Bu ehtiyacın müvəffəqiyyətllə qarşılanması üçün ilk növbədə regionlarda xüsusən də blokada şəraitində yaşayan Naxçıvanda daxili və xarici bazarda kifayət qədər rəqabət aparmaq iqtidarında olan mütərəqqi texnologiyaya malik müəssisələrin yaradılmasına istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir. Məhz bütün bunları nəzərə alaraq yerinə yetirilən dissertasiya işi Naxçıvan Muxtar Respublikasında kəndin sosial-iqtisadi inkişafında yaranmış problemlərin öz həllini tapmasında, o cümlədən kənddə işsizlik səviyyəsinin azaldılmasında dövlət siyasətinin rolunu müəyyənləşdirən obyektiv

---

[1] Axundov Ş., Axundov M. İqtisadiyyat, sahibkarlıq, bazar münasibətləri, marketinq və səmərəlilik. Bakı: 1992-272 s.

zərurətdən irəli gəlməklə dissertasiya işinin aktuallığını, onun əsas istiqamətlərini və tədqiqatın metodoloji prinsiplərini formalaşdırır. Odur ki, "Müasir şəraitdə kəndin sosial iqtisadi inkişaf problemləri" mövzusunda dissertasiya işi öz aktuallığı ilə seçilir.

**Problemin öyrənilməsi səviyyəsi**. Kəndin kənd təsərrüfatı ilə əlaqəsi və kəndin sosial-iqtisadi inkişaf strategiyası kimi tədqiqi və proqnozu iqtisadçı alimlər Z.Ə.Səmədzadə, A.A.Nadirov, S.V.Salahov, Ə.Q.Əlirzayev, Ə.K.Ələskərov, N.H.Əhmədov, A.A.Rüstəmov, A.İ.Şirəliyev, A.H.Qəribov tərəfindən öyrənilmişdir. Kənd əhalisinin sosial vəziyyəti və onun həyat tərzinin formalaşması xüsusiyyətləri xarici alimlər N.M.Rimaşevskaya, V.F.Mayer, M.A. Mojina, T.İ.Zaslavskaya, V.Şvyakov, T.P.Volkova, L.M.Miqranova, V.F.Raysix tərəfindən tədqiq olunmuşdur. Bu tədqiqatlardan fərqli olaraq Azərbaycan kəndinin sosial-iqtisadi inkişaf problemlərinə iqtisadi islahatların amili və nəticəsi kimi baxmaqla kompleks idarəetmə obyekti kimi tədqiqinə kompleks yanaşılmamışdır.[2] Bu baxımından kəndin sosial-iqtisadi inkişafının kompleks sistemli tədqiqi və uyğun tədbirlərin əsaslandırılması istiqamətləri az öyrənilmişdir. Hesab edirik ki, dissertasiya işi aktuallıq və öz həllini gözləyən məsələlərin tədqiqi baxımından yenidir.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Dissertasiyanın məqsədi Azərbaycan kəndinin regional problemlərinin bazar iqtisadiyyatı şəraitində əsaslandırmaq və onun həlli yollarını və mexanizmlərini tövsiyə etməyi nəzərdə tutur. Dissertasiyanın məqsədinə uyğun olaraq əsas aşağıdakı vəzifələrin tədqiqi məqsədəuyğun hesab edilmişdir:

- kəndin sosial-iqtisadi inkişafının mahiyyətini, onun meyar və göstəricilər sistemini, bazar mühiti və regional siyasətini əlverişli təşkili baxımından əsaslandırmaq və onun həlli yollarının metodoloji və metodiki aspektlərini vermək;
- kəndin sosial-iqtisadi inkişaf metodologiyası kimi sistem yanaşmanın əsas prinsiplərini, tərkib elementlərini və bu sistemin təsviri və funksional modelini müəyyən etmək;
- kəndin sosial-iqtisadi inkişafının regional xüsusiyyətlərini ümumiləşdirib, onun əsas istiqamətlərini əsaslandırmaq;

---

[2] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı: 11 fevral 2004-cü il.

- Naxçıvan Muxtar Respublikasının kəndlərinin sosial-iqtisadi inkişaf xüsusiyyətlərini real iqtisadiyyatla əlaqələndirməklə, blokada şəraiti üçün və blokadan sonrakı şəraitdə perspektiv inkişaf yollarını əsaslandırmaq;

- müasir şəraitdə Naxçıvan Muxtar Respublikasında islahatların səmərəli təşkili və alternativ resurslardan istifadə etməklə idarəetmə resurslarının təkmilləşmə istiqamətlərini vermək;

- Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın əsas amilləri olan istehsal, bölgü və istehlak sferasında səmərəli transformasiya modelini vermək;

- Naxçıvanın bazar iqtisadiyyatı şəraitində əmtəə və xidmət təklifini, əhalinin rifahını və sosial obyektlərin inkişaf problemlərini əsaslandırmaq;

- Azərbaycanda kəndin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini təhlil edib Naxçıvanda onun formalaşma xüsusiyyətlərini təhlil etməklə, əhalinin həyat səviyyəsi və yoxsulluq problemlərinin həlli yollarını, əhalinin sosial təminat səviyyəsini və onun təkmilləşmə istiqamətlərini müəyyənləşdirmək;

-Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi problemlərin həlli baxımından kənd təsərrüfatının inkişafı, sosial infrastrukturun təşkilinin təkmilləşməsi və dövlətin kəndin sosial-iqtisadi inkişaf istiqamətlərində rolunun qiymətləndirilməsinin perspektivini vermək.

**Tədqiqatın obyekti**. Tədqiqatın obyektini kəndin sosial-iqtisadi inkişaf problemləri və onların formalaşma xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın predmeti** olaraq kəndin sosial-iqtisadi inkişafında istehsal, bölgü və istehlak sferasında münasibətlərin tədqiqi və əhalinin rifahının, sosial müdafiəsinin xüsusiyyətlərini perspektiv təkmilləşmə istiqamətlərini əsaslandırmaqdır.

Tədqiqat işinin nəzəri-metodoloji əsasını Azərbaycan Respublikasının Prezidentinin sosial-iqtisadi inkişafın dövlət təminatını reallaşdıran fərmanları, sosial-iqtisadi normalara aid Nazirlər Kabinetinin və uyğun orqanların sənədləri, xarici və ölkədaxili iqtisadçı alimlərin, elmi-tədqiqat institutlarının araşdırmalarının nəticələri daxildir.[3] Dissertasiya işinin yazılmasında Naxçıvan MR-nın mövcud iqtisadi inkişaf durumu, onun əsas göstəricilər sistemi, islahatların konkret nəticələri və Naxçıvan Muxtar Respublikasında baş verən iqtisadi və sosial dəyişmələrin statistik göstəriciləri istifadə olunur.[4] Tədqiqat zamanı sistemli təhlil, proqnoz,

[3] Azərbaycan Respublikasının qanunvericilik toplusu 2000-2004-cü illər.

[4] Azərbaycanın statistik göstəriciləri. Bakı, 2013, 804 s.

iqtisadi-riyazi metodlar, məntiqi ümumiləşmə və analitik-statistik təhlil, normativ və müqayisəli metodlarından istifadə olunmuşdur.

**Tədqiqat işinin informasiya bazası** kimi sosial-iqtisadi inkişaf haqqında ölkə və xarici ədəbiyyatlarda olan materiallar, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əsas göstəriciləri, Naxçıvan Statistika Komitəsinin hesabatları, Naxçıvan Muxtar Respublikası Ali Məcləsinin qəbul etdiyi qərarlar və müvafiq nazirliklərin hesabatlarından istifadə olunmuşdur.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

-kəndin kompleks sistemli həyat fəaliyyəti dairəsi kimi tədqiqinin zəruriliyinin və onun sosial-iqtisadi inkişafın konsepsiyasının tərkib hissəsi kimi yeri və rolu açılır;

- kəndin sosial-iqtisadi inkişafının sistemli və kompleks təsvirini, onun əsas istiqamətləri, dominant problemlərin əsaslandırılması, uyğun amillərin dəyişmə dinamikasına uyğun olaraq kəndin sosial-iqtisadi inkişaf və tənzimləmə modeli verilir;

- kəndin sosial-iqtisadi inkişafı ümumi respublika xüsusiyyətləri kontekstində regional aspektlərin fərqli və ümumi cəhətlərini təhlil etməklə dövlətin himayəçilik siyasətində regional aspektlərin zəruriliyi əsaslandırılır;

- müasir iqtisadi islahatlar və keyfiyyəti dəyişmələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında kəndin sosial-iqtisadi inkişaf özəlliklərini, obyektiv və mövcud blokada şəraitində reallaşmada qərarların qəbulunun xüsusiyyətləri açılır;

- Naxçıvan Muxtar Respublikasında davamlı inkişaf və inteqrasiya şəraitinə uyğun transformasiya meyarlarının, dövlət təminatının əsas yollarının və onların normativ bazasının təkmilləşməsi istiqamətləri verilir;

- əhalinin Naxçıvan Muxtar Respublikasında rifahı onun formalaşmasına təsir edən amillərin istifadəsinin əlverişli variantları əsaslandırılır, xarici və daxili potensialın Naxçıvan Muxtar Respublikasında istifadəsinin təşkilatı-iqtisadi idarəetmə mexanizmlərinin elmi əsaslarla tərtibi və proqnozu müəyyənləşir;

- kəndin sosial-iqtisadi inkişafında rolunu qiymətləndirməklə, blokada şəraitində yaşayan əhalinin məskunlaşması və sosial tələbatının ödənilməsi üçün dövlətin himayəçilik siyasətinin əsas istiqamətləri və onların reallaşması mexanizmləri əsaslandırılır;

- Naxçıvanda sahibkarlığın inkişafının xüsusiyyətləri təhlil edilməklə, onun kəndin sosial-iqtisadi inkişafında rolu qiymətləndirilir;

- Naxçıvanda blokada şəraitində iqtisadiyyat, istehsalın və sosial xidmətin təkmilləşməsi, ehtiyatlardan səmərəli istifadə yolları və qərar qəbulunun səmərəli təşkilinin iqtisadi rolu, onun tənzimlənməsi mexanizmləri proqnozlaşdırılır;

- Naxçıvan Muxtar Respublikasının blokada şəraitində digər ölkələrlə əlaqə forması, idxal-ixrac proseslərinin iqtisadi və sosial inkişafda rolu qiymətləndirilir və təsərrüfat subyektlərinin, sahibkarların əsas vəzifələrinin ictimai əmək prosesində rolu qiymətləndirilir.

**Dissertasiya işinin praktiki əhəmiyyəti**. Azərbaycan Respublikasında kəndin sosial-iqtisadi inkişafının, onun əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən dövlət tədbirlərinin, kompleks və proqram xarakterli layihələrin işlənilməsi və istifadəsi üçün elmi əsaslar yarada bilir. Dissertasiya işinin nəticələri kəndin iqtisadi və sosial inkişafında istehsal, bölgü və istehlak münasibətlərini kənd əhalisinin alıcılıq qabiliyyətinə uyğun transformasiyası üçün metodiki əhəmiyyət kəsb edir. Kənd əhalisinin sosial müdafiəsini təmin edən dövlət sahibkar və ailə subyektlərinin iqtisadi və sosial imkanlarının istifadəsinin əlverişli strategiyasını hazırlamağa və reallaşmasına şərait yaradır. Naxçıvan Muxtar Respublikasında sosial inkişafın tənzimlənməsi dövlət himayəsi və yerli maliyyə-maddi resursların sosial dövriyyəyə cəlb olunmasının səmərəli variantlarının hazırlanmasına elmi və metodiki əsas verir.

**Dissertasiya işinin aprobasiyası və nəticələrinin tətbiqi**. Dissertasiya işinin nəticələri 8 məqalədə 1,0 çap vərəqi həcmində respublikada beynəlxalq və yerli konfranslarda məruzə olunmuşdur. Dissertasiya işinin nəticələri Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinində tətbiq üçün qəbul edilmişdir. Dissertasiya işinin nəticələri Azərbaycan Dövlət İqtisad Universitetinin və Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun seminarlarında dinlənilmişdir.

**Dissertasiya işinin həcmi və strukturu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla1,5 intervalla kompyuter yazısı ilə 142 səhifə həcmindədir. Burada 4 qrafik, 7 sxem, 14 cədvəl verilmişdir.

## İŞİN MƏZMUNU

**Dissertasiya işinin birinci fəsli "Müasir şəraitdə kəndin sosial-iqtisadi inkişafinin mahiyyəti və xarakterik xüsusiyyətləri."** adlanır. Bu fəsildə kəndin sosial-iqtisadi inkişafının tədqiqi metodologiyası, əsas istiqamətləri, perspektiv problemləri və onların həlli yolları əsaslandırılır.

Kəndin sosial-iqtisadi inkişafı ərazi və sahə, həm də funksional idarəetmə obyekti kimi təsvir olunur. Daha çox kəndin iqtisadi və sosial potensialı, onun yeni transformasiya modeli, müasir islahatların tərkib hissəsidir. Sosial-iqtisadi inkişaf ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı şəraitində transformasiyasının əsas bölməsidir. Xarakterik cəhət kəndin sosial problemləri, onun iqtisadi və maliyyə əsaslarının ümumi iqtisadi inkişafla əlaqədə öyrənilməsi metodları və sistemləri kəsb edir.

Sosial-iqtisadi inkişaf göstəriciləri makro və mikro səviyyəli yanaşma ilə mümkündür. Sosial-iqtisadi inkişafın qlobal problemləri milli iqtisadiyyat və rifah problemləri baxımından həlli planlaşdırılır. Sosial inkişaf konstitusiya əsaslarına uyğun olaraq sosial hüquq normaları və resurs potensialını nəzərə almaqla formalaşdırılır.[5] Kəndin ərazi potensialı, ərazi resursları və həmçinin intellektual potensialla müəyyənləşir. Elmi-texniki potensial ünvanlı və ərazi xarakterini onun tətbiqi ilə bağlı olduqda öz formasını, təşkili quruluşunu və həmçinin sosial-iqtisadi nəticələrini tapır.

Kəndin maddi vəziyyəti onun ərazi istehsal kompleksi kimi baxılması ilə mümkündür. Kəndin istehsal rolu, onun təbii sərvətləri və xammal bazası, həmçinin iqtisadi vəziyyəti ilə əsaslanan ixtisaslaşma və təsərrüfat fəaliyyətinin istiqamətləri ilə müəyyənləşir. Kəndin ifahı, əhalinin yoxsulluq səviyyəsi, kənddə olan əhalinin iş yerləri və həmçinin kəndin əhalisinin sosial müdafiəsi istiqamətləri və onların rolu ilə səciyyələnir.

Kəndin öyrənilməsi, onun iqtisadi və sosial rolu daha çox kənd təsərrüfatı və ərzaq istehlakı, ərzaq təhlükəsizliyi və iqtisadi artımın kənd təsərrüfatı sektorunda formalaşma mənbələri ilə ifadə ounur. Iqtisadi artımın kənd təsərrüfatı bölməsi, ümumi daxili məhsulun həcmi və onun strukturu ilə formalaşır. Iqtisadi artımın əsas göstəriciləri olan ümumi daxili məhsulun adambaşına düşən səviyyəsi respublikanın iqtisadi və sosial inkişafını müəyyənləşir.[6] Bu zaman maddi və şəxsi amillər, kənd

---

[5] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2002.

[6] Əlirzayev Ə.Q. Maddi rifah və iqtisadi artım. Bakı: Elm, 1979, 112 s.

təsərrüfatında istehsal həcmini və onun məhsullar üzrə strukturunu formalaşdırır.

Kəndin sosial-iqtisadi xüsusiyyətləri kənd təsərrüfatı və təbii sərvətlərin xüsusiyyətləri ilə formalaşır. Ona örə də kəndin sosial-iqtisadi potensialını qiymətləndirmək üçün bir sıra amilləri qruplaşdırmaq olar. Nəzəri cəhətdən bu amillərə aşağıdakılar daxildir:

- təbii-coğrafi mühit və onların istifadəsinin səmərəli variantları;
- kənd əhalisinin təii artımı onun sosial-demoqrafik və əhalinin məşuğlluq səviyyəsi;
- əhalinin istehlakının formalaşma mənbələri, aparıcı istehlak məhsullarının istehsalı, idxal və ixracatı;
- kənd əhalisinin istehlak səviyyəsinin və istehlak strukturunun formalaşmasında kənd təsərrüfatının rolu və kəndin maliyyə resursları;
- kəndin bazar tələb və təklifinin formalaşmasında rolu. Kəndin ayrı-ayrı sahə və tələbatın ödənilməsinin konkret üsulları;
- kəndin sosial-iqtisadi inkişafının maliyyə, kredit potensialının təminatı və bu amillərin kənd əhalisinin sosial-iqtisadi inkişafına təsiri;

Bu istiqamətlər kəndin bir sıra iqtisadi və sosial problemlərini və onların tədqiqinin metodoloji xüsusiyyətləri yaradır.

Kəndin sosial-iqtisadi inkişafı ümumi və konkret göstəricilər və meyarlar ilə təhlil olunur. Daha xarakterik cəhət kəndin ərazi istehsal kompleksi və istehlak sferası kimi baxılması daha xarakterik cəhətdir. Onun əsas faktorları özü-özünə tənzimlənən mexanizmlər deyil, kəndə təsir edən dövlət siyasəti, kəndin özünün daxili quruluşu, onun resurs potensialı və əsas məqsədləri üzərində qurulur. Kəndin inkişafının əsas məqsədləri, ümumi respublika və bazar iqtisadiyyatı şəraitində konkret məqsədlərlə ifadə olunur.[7] Daha sistemli yanaşma baxımından kəndin sosial-iqtisadi inkişafı məqsədli proqramlar əsasında baş verir. Prinsipial ərazi funksional sxem olaraq kəndin sosial-iqtisadi inkişafını aşağıdakı kimi sistem halında təsvir etmək olar.

---

[7] Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı: Elm, 2000, 114 s.




**Sxem 1.** Kəndin sosial-iqtisadi inkişaf meylləri və əsas mənbələri.

Sxemdən göründüyü kimi, kəndin sosial-iqtisadi inkişaf məqsədləri statistik və parametrik olaraq hər hansı çatılmış səviyyəsi yuxarı nəticələr əldə etmək məqsədini güdür. Daha çox iqtisadi artım olan ərzaq təhlükəsizliyi ümumi daxili məhsul və kənd təsərrüfatı məhsulları ilə ərzaq bazarının tələb və təklifini tənzimləmək siyasəti əsas yer tutur. Kəndin rolu məcmuu tələbat və məcmuu təklifdə natural, dəyər və digər resurslarla iştirak payının yüksəldilməsi meylləri ilə müəyyənləşir.

Kəndin münasibətlər sistemində yeri və əsas aparıcı rolu həmin kəndin coğrafi-iqtisadi amilləri təbii-coğrafi və kommunikasiya təminatı ilə qiymətləndirilir.[8] Kəndin sosial-iqtisadi inkişafı dövlətin ərazi və regional siyasətinin formalaşması və reallaşması istiqamətləri ilə formalaşır. Müasir liberal iqtisadi mühit və aqrar münasibətlərdə rəqabət, bir sıra resursların istifadəsinin bazar difisitini yaxud onun istifadəsi üçün zəruri olan məsrəflərin az olması ilə üzləşir. Kəndin sosial problemləri və kəndin iqtisadi inkişaf meyllərini tənzimləyən siyasət formalaşır.[9] Bu tədqiqatlar

---

[8] Qəribov A.H. Bağırova İ.H. Beynəlxalq iqtisadi inteqrasiya və regional inkişaf. Naxçıvan: Əcəmi, 2014, 207 s.

[9] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 312 s.

kəndin sosial-iqtisadi inkişafının tənzimləmə obyekti kimi qəbul edilir. Eyni sosial problemlərin formalaşması və onların həlli yolları uyğun olaraq tənzimləmə və idarəetmə mexanizmləri, sahə və ərazi qütbləşməsinə malikdir.

Kəndin kompleks inkişafı sistemli yanaşma kompleks indeksikasiya və xarici amillərin dəyişmə meyllərini nəzərə almaqla həyata keçirilir. Sistemli yanaşma resurs və məqsədli proqram üsulları ilə baş verir. Kəndin əhalisinin artımı kəndin iqtisadi durumu və sosial müdafiə problemləri tədqiqat metodlarının seçilməsinə və onların qiymətləndirilməsində istifadə olunan mexanizmlərə əsaslanır.

Kəndin əhalisinin həyat səviyyəsinin yüksəldilməsi və sosial inkişaf strategiyası ilə şərtlənir və istehsalın səmərəli təşkili və bölgü münasibətlərinin ədalətli reallaşması ilə baş verir.[10] Azərbaycan Respublikasının kənd yerlərinin inkişafına tətbiq edilən ümumrespublika strategiyasının reallaşma xüsusiyyətlərini aşağıdakı istiqamətlərdə ümumiləşdirmək olar:

- ümumi iqtisadi inkişaf strategiyası baxımından respublika iqtisadiyyatının əsas göstəricilərinin dinamikasını saxlamaq, tarazlı inkişafı təmin etməklə hər bir regionun və kəndin sosial inkişafını ümumi iqtisadi göstəricilərə yaxınlaşdırmaq və kəndlərin inkişafındakı geriliyi aradan qaldırmaq;
- respublika iqtisadiyyatında struktur dəyişmələrin mütərəqqi formalarını, istehsal və istehlak strukturunu sosial effekt baxımdan qiymətləndirməklə ərazidə istehsal sahələri infrastruktur obyektlərini və ev təsərrüfatını təkmilləşdirmək;
- həyat səviyyəsi istiqamətində kənd əhalisinin istehlak səviyyəsini maksimumlaşdırmaq onun strukturunu, ümumrespublika strukturuna yaxınlaşdırmaq, həmçinin istehlak strukturunda xidmətin və mənəvi istehlak məhsullarını artırmaq.

Azərbaycan kəndinin iqtisadi və sosial inkişafının ərazi bölməsi kimi onun əsas istiqamətləri ərazi kompleksləri baxımından təhlil olunur. Kəndin sosial-demoqrafik fəaliyyətinin inkişafı kəndin rifah halı ilə bağlıdır. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi kəndin ərazi kimi idarə edilməsinin meyarı kimi qəbul edilir.[11] Kənd əhalisinin tələbatının ödənilməsi kompleks şəraitlərlə bağlıdır. Ilkin növbədə kənd əhalisinin

---

[10] Əlirzayev Ə.Q. Azərbaycan dövlətçiliyinin qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təcrübə və perspektiv düşüncələr. Bakı: Adiloğlu, 2006, 512 s.

[11] Mehbalıyev S.S., İsgəndərov R.G. Əmək bazarları və əhalinin sosial müdafiəsi. Bakı, 2000, 280 s.

tələbatının formalaşması istiqamətləri və onların ödənilməsində resurs potensialının əsas mənbələri və onlardan istifadənin səmərəli variantlarının təşkili və idarə olunması əsas istiqamətdir.

Kənd təsərrüfatının resurslarının təkrar istehsalı kənd təsərrüfatı müəssisələrinin, fiziki və hüquqi şəxslərin gəlirlərinin bölgüsü və yenidən bölgüsü prinsiplərini formalaşdırır. Kəndin ərazisinə investisiya axını bütün mənbəələr hesabına bazar tipli mənfəət əldə etmək modelinə uyğun inkişaf edir. Kənd təsərrüfatı dövlət, qeyri-dövlət və xarici investisiya mənbələrinin istifadəsi və onun gətirdiyi effektin bölgüsü qaydaları və normalarına uyğun təşkili nəticəsincə, həmin müəssisə və təsərrüfatların davamlı inkişaf strategiyasını formalaşdırır.[12] Kənd təsərrüfatı potensialı bazar iqtisadiyyatı şəraitində sahələr və funksional təyinatlı resurs istifadəsinin prioritetləri üzərində qurulur. Ona görə də bölgü və yenidən bölgü sistemi kəndin iqtisadi dövriyyədə rolunu təşkil etmək, onun resurslarının səmərəli istifadəsi istiqamətlərini rentabellik səviyyəsinə görə qiymətləndirmək kriteriyaları üzərində qurulur. Prinsipial olaraq kənd təsərrüfatı liberallaşma və tənzimlənən iqtisadi obyekt və fəaliyyət sahəsi olmaqla bazar münasibətləri sistemində özünün sosial-iqtisadi nəticələri ilə səciyyələnir.

Sosial yönlü tədbirlər yoxsulluq həddi və bu həddə yaşayan əhalinin rifahının yaxşılaşdırılması tədbirləri əhatə edir. Əhalinin gəlirlərinin səviyyəsinə görə paylanma qanunauyğunluğu təminatın dövlət strategiyasını hazırlamağa əsas verir. Belə ki, gəlirlərin adam başına düşən səviyyəsi mövcud qiymət sektorunun dəyişməsi şəraitində istehlak üçün məhdud olan əmtəə və xidmətlərin məcmunu müəyyənləşdirir.

**Cədvəl 1**

**2013-cü ildə yaşayış yerləri üzrə ev təsərrüfatının əhalinin hər nəfərinə düşən gəlirə görə bölgüsü (%-lə)**

| | Cəmi | Şəhər yerləri | Kənd yerləri |
|---|---|---|---|
| Bütün ev təsərrüfatları | 100 | 100 | 100 |
| 200,1-225,0 manat | 10,6 | 11,1 | 10,0 |
| 225,1-250,0-150,0 manat | 6,4 | 7,5 | 5,1 |
| 250,1 -300,0 manat | 6,1 | 7,5 | 4,6 |
| 300,0 və çox | 5,2 | 6,6 | 3,4 |

Cədvəl DSK-nin məlumatları əsasında tərtib edilmişdir. Bakı-2014

[12] Niftullayev V.H. Sahibkarlığın əsasları. Bakı, 2002, 618 s.

Cədvəldən göründüyü kimi, ölkə üzrə ev təsərrüfatlarının gəlirlərinin yaşayış yerinə görə hər nəfərə düşən səviyyəsində orta təbəqənin xüsusi çəkisi aşağıdır. Bu göstərici ölkə üzrə 28,3% təşkil etməklə ölkə üzrə əhalinin həyat səviyyəsinin minimum istehlak zənbili ilə müqayisədə yaxşılaşdığını, əhalinin gəlir əldə etmək mənbələrinin çoxaldığını göstərir.

Eyni zamanda, təhlildən məlum olur ki, adambaşına orta aylıq gəlirlərin səviyyəsi yüksəldikcə, bu bölgüdə əhalinin xüsusi çəkisi azalır. Təhlil göstərir ki, şəhər yerləri ilə müqayisədə kənd yerlərində aşağı gəlirli (200,1 manat) ailələrin xüsusi çəkisi 1,1% azdır. Kənd təsərrüfatında istehsalçı məhsul istehsalına görə çəkilən xərclərin müqabilində az gəlir götürməsi səbəbindən bəzi təsərrüfatların zərər çəkməsi əhalinin gəlirlərinə təsir etmiş, nəticədə şəhərlə müqayisədə kənddə orta aylıq gəlirlərin səviyyəsi aşağı olmuşdur.

Təhlil göstərir ki, adambaşına orta aylıq gəlirlərin səviyyəsi 110,0 manat olan bölgüdə şəhər yerləri ilə müqayisədə kənd əhalisinin xüsusi çəkisi 1,3% yüksəkdir. Bu son illərdə aparılan aqrar islahatların uğurlu nəticələri, gəlirlərin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sahəyə dövlət yardımlarının artırılması ilə bilavasitə bağlıdır. Təhlil göstərir ki, hər nəfərə orta aylıq gəlirlərin səviyyəsi artdıqca kənd əhalisinin xüsusi çəkisi şəhər yerləri ilə müqayisədə daha aşağıdır.

Müasir şəraitdə kəndin sosial-iqtisadi inkişafında əsas istiqamətlərin həlli yolları kimi qəbul etməklə mümkün olar. Belə istiqamətlərə aşağıdakılar daxildir:

- yoxsulluğun azaldılması və regional inkişaf;
- əhalinin demoqrafik tərkibinin səmərəli strukturunu formalaşdıran təminat sisteminin təşkili;
- kəndin əhalisinin həyat səviyyəsi, sosial müdafiə və sosial təminatının əsas istiqamətləri;
- kənd təsərrüfatı, ekoloji təmiz ərzaq məhsulu və ev təsərrüfatının inkişafına dövlət dəstəyinin səmərəli mexanizmləri.

Kənd əhalisinin yoxsulluq problemləri, əhalinin həyat səviyyəsi, onun demoqrafik tərkibi və məşğulluğu ilə ölçülür. Kənd əhalisinin özünəməxsus məşğulluq problemləri mövcuddur. Bu istiqamətdə daxili bazara uyğun məhsul və xidmət istehsalı yaratmaqla, əhalinin öz tələbatına uyğun ev təsərrüfatlarının inkişafını yüksəltmək yolları durur.

**Dissertasiya işinin ikinci fəsli "Azərbaycan kəndinin sosial inkişafının əsas istiqamətləri"** adlanır. Bu fəsildə kəndin əhalisinin həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılması, kənd əhalisinin

sosial təminat səviyyəsinin təhlili və yüksəldilməsi, demoqrafik inkişafın əsas meylləri təhlil olunur.

Kənd əhalisinin həyat səviyyəsinin formalaşması, onun əhalisinin gəlir səviyyəsi, istehlakı və həmçinin yığımının dinamikası və tələbatın özünün inkişaf səviyyəsi və onun ödənilməsi dərəcəsi ilə ölçülür. Kənd əhalisinin həyat səviyyəsi ümumi iqtisadi artım və adam başına düşən gəlirlərlə ölçülür. Adam başına düşən ümumi daxili məhsul dünya ölkələri ilə müqayisədə yoxsulluq meyarı kimi qəbul edilir. Əlbəttə, bu sintetik göstərici olmaqla özünün daxili strukturu və istifadə istiqamətlərinə görə keyfiyyət göstəriciləri kəsb edir.

Kənd əhalisinin gəlirlərində daha çox onun əhalisinin məşğulluq sahəsi və hər bir nəfərin iqtisadi fəallığı, işləyənlərlə işləməyənlərin sayı, adam başına düşən “ailə yükü” ilə müəyyənləşir.[13] Kənd əhalisinin sosial tərkibi onun maddi rifaha görə qütbləşmə səviyyəsini müəyyənləşdirir. Qütbləşmə  adambaşına görə gəlirlərlə və uyğun olaraq istehlakla müəyyənləşir. Gəlir və istehlakın differensiyası qütbləşmənin gəlir və istehlak sferasında olan amilləri ilə müəyyənləşir. Gəlirlərə təsir edən amillər istehsal və xidmətin və onların məhsullarının qiyməti ilə ölçülür.

Kənd əhalisinin məşğulluğu, kəndin iqtisadi potensialı, özəlləşmə dərəcəsi və təsərrüfat əlaqələrinin intensivliyi ilə müəyyənləşir. Bu da öz növbəsində kənddə bazar tipli münasibətlərin təşkili metodlarını təkmilləşdirməklə mümkün olur. Kənd əhalisinin gəlirlərinin formalaşması daha çox sahibkarlıq gəlirləri və kənd təsərrüfatı müəssisələrinə muzdlu əməyə görə ödəmə xərcləri təşkil edir. Bütövlükdə əmək bazarının təşkili, əmək ehtiyatlarının istifadəsində tələbin təklifi qabaqlaması muzdla əməyə görə haqları artırır. Kənd təsərrüfatı işçilərinin əmək haqqısı dövlət və qeyri-dövlət müəssisələri hesabına firmalar və yaxud icariyyə görə verilən haqlardır. Rəqabət mühiti kənd təsərrüfatı istehsalında əmək haqqının artırılmasını və onun məhsulunun qiymətinin artmasına səbəb olur. Müəyyən həcmə nail olmaq hər bir kənd təsərrüfatı müəssisəsinin fəaliyyətinin meyarına və onun davamlı inkişafına yönəlir. Əmək haqqının dinamikası istehlak tələbatına və təkrar istehsal üçün zəruri olan maddi və mənəvi tələbata uyğun formalaşır.

Naxçıvan Muxtar Respublikasının əhalisinin  həyat səviyyəsi, onun iqtisadi quruluşu və əhalisinin sosial-demoqrafik tərkibi ilə müəyyənləşir.

---

[13] Əhmədov N.H. Regional siyasət və Naxçıvanın iqtisadi təhlükəsizliyi. Bakı: Elm, 2013, 107 s.

Belə ki, əhalinin sosial-iqtisadi vəziyyəti regional xüsusiyyətlər kəsb etməklə yanaşı, həmin regionda bazarın təşkili mexanizmləri ilə formalaşır.

Naxçıvan Muxtar Respublikasında daha çox kənd təsərrüfatı aparıcı rol oynayır. Respublika əhalisinin 80%-ni kənd əhalisi təşkil edir. Regionda əhalinin torpaq sahəsi olduğu üçün bəzi məhsulların istehsalı fərdi təsərrüfat hesabına ödənilir. Əhalinin gəlir və istehlakında daha çox xüsusi çəkini sahibkarlıqdan gələn gəlirlər təşkil edir. O cümlədən, torpaq islahatlarının həyata keçirilməsi ailə təsərrüfatının geniş vüsat alması əhalinin yoxsulluq səviyyəsinin azaldılmasına təsir edən amilləri formalaşdırır.

Naxçıvan Muxtar Respublikası 2008-2012-ci illərdə əhalisinin pul gəlirləri və xərcləri onların dinamikası həyat səviyyəsinin ümumiləşmiş göstəricisi kimi istifadə olunur. Aşağıdakı göstəricilər sistemi Naxçıvan Muxtar Respublikasında əhalinin rifahının yüksəldilməsi yolları və resurslarını müəyyənləşdirir. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı onun emal sənayesinə çevrilməsi və həmçinin bazar tələb və təklifində istehsalın və emal sənayesinin təkmilləşməsi baş verir.[14]

2000-2005-2013-cü illərdə heyvandarlıq məhsullarının istehsalının əsas artımı 54,1 və 27% həcmində olumuşdur ki, buda əsasən məhsuldarlığın hesabına baş vermişdir.

**Cədvəl 2**

**Naxçıvan Muxtar Respublikasında heyvandarlıq məhsulunun dinamikası**

| Məhsulun adı | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | 5271 | 8123 | 9772 | 9959 | 10319,4 | 10824,7 |
| Süd | 54248 | 64818 | 75965 | 77119,6 | 78417,5 | 78613,1 |
| Yumurta, min ədəd | 45817 | 48300 | 64158 | 68229,5 | 69544,2 | 69644,8 |
| Yun, (fiziki çəkidə) tonla | 653 | 830 | 944 | 956,0 | 967,9 | 982,9 |

Cədvəl NMRSK-nin məlumatları əsasında hazırlanmışdır. Bakı-2014

Cədvəldən göründüyü kimi, heyvandarlıq məhsullarının istehsalı və bu sahənin sosial-iqtisadi mənası xüsusi əhəmiyyət kəsb edir. Heyvandarlıq sahəsi özünün Naxçıvan Muxtar Respublikasında iqtisadi rolu, məşğulluq və bazar marketinqinə uyğun məhsul istehsalında rolu digər fəaliyyət növündən fərqlidir. Heyvandarlıq sahəsində qoyun, keçi və quşçuluq daha geniş yayılıb. Naxçıvanın kəndlərində əkinçiliyin heyvandarlığa yönəldilən

[14] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının proritetləri: İqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.

sahələri daha geniş yayılıb. Yemçilik və taxılçılıq növü üzrə kənd təsərrüfatının inkişafı heyvandarlığın yem bazasını təmin edir. Naxçıvanda yem istehsalında, yonca, taxılçılıq, şəkər çuğunduru və arpa istehsalı geniş yayılıb. Müasir şəraitdə əkin sahələrinin özəl sektorda olması daxili bazarın tələbatına uyğun istifadə olunur. Əkin sahələrinin istifadəsinin marketinq quruluşu, istehlak bazarının və ixracat yönlü istehsal strukturuna uyğun planlaşdırılır. Naxçıvan Muxtar Respublikasında xarici bazara yönəldilən istehsal və emal strukturu, uyğun olaraq investisiya mənbələri tələb edir. Naxçıvan kəndlərində kapital yığımı və ehtiyatlar aşağı səviyyədədir. Naxçıvan kəndlərinin əhalisinin həyat səviyyəsinin formalaşmasında aparıcı rolu onun natural təsərrüfat hesabına istehlakı təşkil edir. Natural istehlak məhsulları ət, süd və meyvə tərəvəz hesabına ödənilir. Naxçıvan kəndlərinin arasında da daxili əmtəə mübadiləsi və xidmət və əmtəə mübadiləsi baş verir. Əmtəə istehsalı ilə məşğul olan ailələr, digər ailələr hesabına xidmət və əmtəə tələbatını ödəyir.

Əhalinin sosial müdafiəsi sosial dövlətin əsas fəaliyyəti olub, aztəminatlı ailələrin həyat səviyyəsi və perspektiv tələbatına təminat yaratmaq vəzifələrini formalaşdırır. Sosial təminat dövlət büdcəsinin, yerli büdcə və ayrı-ayrı şirkətlərin əsas vəsaitlərinin iş yerlərinin açılması və sosial tərəqqi üçün zəruri olan ictimai rifahın təşkili mexanizmlərini əhatə edir. Sosial təminat kənd əhalisinin sosial-demoqrafik tərkibi və onların hər birinin yaşayış üçün tələbatının ödənilməsi istiqamətlərini özündə birləşdirir. Əhalinin sosial müdafiəsi "müdafiə olunan xərclər" hesabına baş verir. O cümlədən, minimal əmək haqqı yaşayış minimumu və ehtiyac minimumu sosial qruplar üzrə tərtib edilir ki, bu da əhalinin kənddəki sosial kontingent kimi tərkibi ilə müəyyənləşir.

Kənd əhalisinin istehlakı onun sosial müdafiəsinin meyar və əsas istiqamətlərini formalaşdırır. Adam başına düşən istehlak səviyyəsi və yaxud ayrı-ayrı sosial nemətlərlə təminat səviyyəsi uyğun olaraq istehlak sferasını tənzimləməklə uyğun mühit yaradır. Belə ki, əhalinin kənd yerlərində təhsilə, səhiyyə və mədəni xidmətlərə olan tələbat kəndin kompleks inkişafı üçün yaradılan şəraitlə bağlıdır. Sosializm şəraitində təsərrüfat planları ilə sosial təminat arasında tarazlılıq dövlət planları ilə təsdiq olunurdu.

Müasir şəraitdə kommersiya maraqları və mənfəət əldə etmək məqsədi ilə rəqabət əldə etmək məqsədi ilə rəqabətqabiliyyətli iqtisadi inkişaf meylləri hər bir sahibkarın investisiya imkanları ilə məhdudlaşır. Dövlətin sosial müdafiə rıçaqları ümumi meylləri tənzim etməklə differensial siyasətlə reallaşır. Ona görə də sosial müdafiə məqsədi ilə

mərkəzləşdirilmiş büdcə və yerli büdcələrin istifadəsi yolları tənzimlənir. Sosial müdafiənin maliyyə əsasları kənd və şəhər rayonlarına normativlər üzrə ayrıldıqda hər bir nəfər üçün eyni imkanlar yaranır. Amma kollektiv məqsədlər üçün sosial müdafiə obyektlərinə xərclər hər bir nəfərin həmin xidmətə daxil olmaq imkanları ilə məhdudlaşır. Daha çox uşaqlı ailələrin pulsuz xidmətə ehtiyacları və onlardan istifadə edilməsi şəraitinə tələbat artır.

Naxçıvan Muxtar Respublikasında blokada şəraiti və kənd təsərrüfatının özəl olması fərdi təsərrüfatın daha üstün artması, sosial obyektlərin müştərək və kollektiv istehlak sferası kimi təşkilinə yeni aspektdən baxmağı tələb edir. Naxçıvan Muxtar Respublikasında kənd əhalisinin sosial müdafiəsi bir başa sosial statusla, digər tərəfdən təhsil, səhiyyə obyektlərinin pullu xidmətlərin gəlir səviyyəsinə görə fərqlənən insanların həyat səviyyəsini saxlamaq niyyətini güdür. Belə ki, demoqrafik prosesə uyğun və onu stimullaşdıran tədbirlər həyata keçirilir.[15] Naxçıvan Muxtar Respublikasının kəndlərində demoqrafik proseslər blokada şəraitində əhalinin yerdəyişməsində yaranan problemlərə görə təbii artımın azalması, daha çox kəndlərdə qocalma səviyyəsinin yüksəlməsi və kənddə yaşayanların çoxunun həyat səviyyəsində mütərəqqi dəyişmələrin olmaması ilə nəticələnir. Kənd əhalisinin öz məhsulunu satmaq üçün bazarların olmaması və emal sənayesinin olmaması bir sıra xammal və kənd təsərrüfatı məhsullarının ancaq yerli tələbata uyğun istehsalı və yerli bazar tələbi həcmində inkişaf meylləri baş verir. Naxçıvan Muxtar Respublikasının son illərdəki inkişaf meyli onun ərazisində istehlak olunan maddi və mənəvi nemətlərin gəlirlərə nisbətən üstün artması ilə müşahidə olunur.

Kənd əhalisinin gəlir və istehlakına demoqrafik amillər təsir edir. Azərbaycanda demoqrafik situasiya məskunlaşmanın əmələ gəlməsinə nüfuz edir. Azərbaycanda demoqrafik situasiya respublikanın sosial-iqtisadi inkişafı və regional dəyişmələrin xüsusiyyətlərini formalaşdırır. Əhalinin təbii artımında doğum səviyyəsinin azalması 1960-cı illərdən hər 10 ildə 30% azalma tempi ilə müşahidə olunur. Kənd əhalisinin doğum səviyyəsinin azalması daha yüksək templə müşahidə olunur. Bu azalma daha çox miqrasiya və həmçinin əhalinin çox uşaqlıqdan imtina etməsi ilə izah olunur. Qeyd edək ki, əhalinin həyat səviyyəsi ilə doğum səviyyəsi

---

[15] Əhmədov N.H. Heydər Əliyevin İnkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və təhlil, 2010, 148 s.

arasında birbaşa reqressiyanı müşahidə etmək çətindir. Əksinə əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə onun doğum səviyyəsinin azalması və yaxud əksinə ailə tərkibində uşaqların az olması ilə həyat səviyyəsinin yüksəlməsi prosesləri baş verir.

Kənd əhalisinin Naxçıvan şəraitində demoqrafik xüsusiyyətləri, valideynlərin hər ailə ilə birgə yaşaması və ailə başçısının sərəncamına uyğun olaraq əmlak əmək bıolgüsünün və istifadəsinin əsas istiqamətlərini müəyyənləşdirir. Ailənin iqtisadi və sosial vəziyyəti hər bir nəfər işləyənə düşən işləməyənlərin sayı təşkil edir. Demoqrafik situasiya kəndə yerlərində ölkə iqtisadiyyatında baş verən bütün dəyişmələrin və dıovlət siyasətinin əsas göstəricisi kimi formalaşır. Belə ki, kənddə məşğulluğun artırılması kənddə məskunlaşma siyasəti və həmçinin kəndin sosial infrastrukturunun inkişafı istiqamətləri, son nəticədə kənddə məskunlaşmanı stimullaşdırır.

Ailə tərkibi onların yaşı və məşğulluğu kənddə əhalinin maddi vəziyyətini onların yaşayışı üçün zəruri olan şəraiti və gəlir gətirmək üçün fəaliyyətinin əsas konturlarını müəyyənləşdirir. Bu əlaqə sxematik olaraq aşağıdakı kimi ifadə olunur.




**Sxem 2.** Kəndin demoqrafik situasiyası və iqtisadi-sosial əlaqələr.

Kənd əhalisinin ailə tərkibi, uşaqların ailədə anaların tərkibi, uşaqların ailədə anaların yaşına və məşğulluğuna görə paylanması uyğun olaraq formalaşmış meyllərin dinamikasını xarakterizə edir.

**Dissertasiya işinin üçüncü fəsli "Naxçıvan iqtisadiyyatı və kəndin sosial-iqtisadi inkişafının perspektivləri"** adlanır. Bu fəsildə Naxçıvanda kənd təsərrüfatının inkişafı və kəndin sosial inkişaf perspektivləri verilir.

Naxçıvan Muxtar Respublikasında iqtisadi artımın əsas istiqamətləri olaraq ümumi daxili məhsul, kapital qoyuluşu və ayrı-ayrı sahələrin məhsul və xidmət istehsalının həcmi, onun strukturu təşkil edir. Belə ki, ümumi daxili məhsul 2012-ci ildə 2005-ci ilə nisbətən 2,6 dəfə, adam başına düşən ümumi daxili məhsul isə 3,0 dəfə artmışdır. Ümumi daxili məhsulun adam başına düşən səviyyəsinin onun mütləq həcmindən yuxarı olması əmək məhsuldarlığı və qiymətin dəyişməsi ilə izah olunur. Ümumi daxili məhsulun artım tempinə təsir edən amillərdən Naxçıvan Muxtar Respublikasında təşkilatı iqtisadi amil olaraq iqtisadi və sosial potensialın istifadəsinin təkmilləşməsi, daha çox yerli resurslardan istifadə etməklə xərc strukturunda xarici amillərin azaldılması və həmçinin kadr potenisalının sosial məqsədlər üçün istifadə edilməsi yolları təşkil edir.

Naxçıvanda kənd təsərrüfatı istehsalı, həmin resursların həcmi və onlardan istifadənin istiqamətləri və səmərəli variantları ilə həll olunur. Kənd təsərrüfatının inkişafında dövlət tənzimlənməsi, dotasiya, subsidiya və əhali vəsaitlərinin cəlb edilməsi yolları ilə intensivləşir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafının ilkin resurs potensialı, torpaqların uzunmüddətli istifadəyə verilməsi, bələdiyyə torpaqlarının icariyyə verilməsi və dövlət sahələrinin ayrı-ayrı kəndli fermer və hüquqi şəxslərə haqqı ödəməklə müqavilə əsasında istifadəsi yolları əhatə edir.[16] Dağ regionlarında kənd təsərrüfatının inkişafı üçün sahibkarlığa dəstək proqramı çərçivəsində kiçik və orta sahibkarlığın genişlənməsi üçün dövlət və qeyri-dövlət resurslarının cəlb edilməsinə şərait yaradılması əsas rol oynayır. Respublikada əhalinin məşğulluğunu təmin etmək məqsədi ilə bəzi məhsulların istehsalına əlavə subsidiya, lizinq xidməti və həmçinin emal üçün və yaxud ixracata qarant mexanizmləri tətbiq edilir. Şəkər çuğundurunun Türkiyəyə ixracatı, onun əvəzində şəkər tozunun alınması, ölkənin ehtiyaclarını ödəmək üçün bəzi məhsulların istehsalı və tədarükünə şərait yaradılması mexanizmləri tətbiq olunur. Taxıl istehsalına kömək maliyyə lizinqi, ucuz qiymətdə servis xidmətləri və həmçinin büdcədən ayırmalar bu fəaliyyətin rentabellik səviyyəsini yüksəldir. Kənd təsərrüfatının perspektiv istiqamətləri Naxçıvanda öz ehtiyatlarının və emal sənayesinin inkişafı ilə bağlıdır.

Naxçıvan Muxtar Respublikasında özəlləşmə və sahibkarlığın inkişafına yaradılan şərait və bazarın genişlənməsi istehsal və istehlakın

---

[16] E.Ə.Quliyev "Kənd Təsərrüfatı məhsullatı istehsalının stimullaşdırılmasının təkmilləşdirilməsi" Dissertasiya işi, Bakı, 2006.

adambaşına düşən həcmini artırır. Naxçıvan Muxtar Respublikasında istehlak səviyyəsinin artımı, həmçinin respublikaya gələnlərin və xarici ölkələrdə yaşayan naxçıvanlıların öz dədə-baba yurdlarına investisiya qoyuluşları və istehlak üçün Naxçıvana gəlməkləri ilə bağlıdır. Naxçıvan MR-da mal-qaranın sayı və onların istifadəsi əmtəə və xidmət bazarında istehsal və istehlakın tarazlığını yaradır.

**Cədvəl 3**

**Naxçıvan MR-da mal-qaranın sayı (min baş)**

| | 1994 | 2001 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2010 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara | 49,0 | 81,2 | 84,1 | 88,2 | 92,6 | 94,0 | 96,0 | 102,9 | 104,7 | 106,2 |
| O cümlədən | | | | | | | | | | |
| İnək və camışlar | 23,8 | 47,7 | 48,9 | 51,1 | 55,2 | 55,8 | 56,4 | 58,4 | 60,1 | 60,8 |
| Qoyun və quzular | 254,4 | 322,8 | 366,4 | 392,7 | 401,7 | 391,7 | 405,2 | 603,0 | 625,7 | 635,5 |

Cədvəl Azərbaycanın Kənd təsərrüfatı DSK-nin məlumatları əsasında tərtib edilmişdir. Bakı-2014.

**Cədvəl 4**

**Adambaşına heyvandarlıq məhsullarının istehsalı, kq**

| | 1993 | 2000 | 2003 | 2005 | 2007 | 2008 | 2010 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | 12 | 15 | 19 | 21 | 22 | 22,9 | 23,8 | 24,2 | 25,3 |
| Süd | 52 | 150 | 162 | 170 | 173 | 180,9 | 185,2 | 183,6 | 184,0 |
| Yumurta (ədəd) | 87 | 127 | 117 | 120 | 121 | 134,2 | 156,4 | 162,8 | 163,0 |

Cədvəl Azərbaycanın Kənd təsərrüfatı DSK-nin məlumatları. Bakı-2014.

Naxçıvan Muxtar Respublikasında mal-qaranın sayı, onun məhsuldarlığı respublikada ərzaq bazarının formalaşmasına təsir edir. Daha çox ərzaq bazarının formalaşmasında ev təsərrüfatı və onun istehsal həcmi əsas rol oynayır. Əhalinin istehlakında natural təsərrüfat ərzaq bazarının formalaşmasını təmin edir. Ət, süd və yumurta istehsalının həcmi 2013-cü ildə 10824,7 ton, 78613,1 ton, 69,6 mln. ədəd təşkil edir ki, bu da 2005-ci ilə nisbətən uyğun olaraq 75%, 82%, 69% artım təşkil edir. Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatı ərzaq bazarının formalaşmasında xüsusi rol oynayır. Ev təsərrüfatlarında ailə gəlirləri kənd təsərrüfatı, xidmət sferası və muzdlu əmək yolu ilə formalaşır. Daha çox əhalinin ət və süd, meyvə, tərəvəz, yumurta istehlakı və ev təsərrüfatından gələn gəlirlərlə təmin olunur.

Naxçıvan Muxtar Respublikasında kapital tutumlu sahələrin inkişafı mədən və mineral su istehsalı sahəsidir.[17] Bu sahələrin inkişafı kənd

---

[17] Ə.Qasımov. Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2005, 354 s.

əhalisinin məşğulluğunu təmin edir. O cümlədən, mineral su ehtiyatlarının istifadəsi, bazarların tələbatına uyğun genişlənməsi yollarını əhatə edir. Mineral su məhsullarının xarici bazarlara çıxarılması yolu ilə onun istehsalının həcmini artırmaq və iş yerlərinin açılmasına şərait yaratmaq mümkün olur. Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqə forması kimi İran və Turkiyə emal sənayesinin gücündən  istifadə etmək olar.

Naxçıvanda turizmin inkişafı, emal sənayesi və xammal ixracatı məcmuu tələbatı artırır və istehlakı formalaşdırır. Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğu və rifahı istehlak tələbatı və maliyyə potensialı məcmuu tələbatla qiymətləndirilir. Daha çox kənd təsərrüfatı və xidmət sferası üstünlük təşkil edir. Xidmət sferasının inkişafında fərdi təsərrüfata xidmət və əhəliyə pullu və pulsuz xidmətlər əsas rol oynayır. Pulsuz xidmət sferası olaraq təhsil, səhiyyə və sosial mədəni sahələrin inkişafı təşkil edir. Daha xarakterik cəhət Naxçıvan Muxtar Respublikasında su, işıq və qaz təminatı, onların qiyməti rol oynayır. Naxçıvan kəndləri artıq qaz və işıqla təmin olunub. Amma istifadə dərəcəsi və ödəmə haqlarının istehlak həcmindən asılılığı bir çox ailələrin təminat səviyyəsində qütbləşmə  amilləri mövcuddur.

Kənd təsərrüfatının inkişafında prioritet istiqamətlər, əsasən kəndin iqtisadi potensialına uyğun sosial-iqtisadi inkişaf və əhalinin həyat səviyyəsini yüksəltmək məqsədləri üzərində cəmləşir. Bu istiqamətlərə aşağıdakılar daxildir.

1. Kəndin sosial-iqtisadi inkişafı üçün onun əhali və təbii potensialının iqtisadi dövriyyəyə cəlb olunması yolu ilə daha səmərəli istehsal və istehlak bazarını təşkil etmək.

2. Kəndin daxilində kənd təsərrüfatı və emal sənayesini gücləndirməklə, ixracat yönlü əmtəmm-xidmət istehsalı, tranzit məhsulların daşınması, istifadəsi və saxlanması üçün infrastruktur sahələrin artımı və genişlənməsi.

3. Kənd əhalisinin məşğulluğu və kənd əhalisinin xidmət və infrastruktur tələbatına uyğun olan xidmət və mədəni sosial sahələrin genişlənməsi yolu ilə əhalinin sosial tələbatının ödənilməsi və əhali məşğulluğunun tam təmin olunması.

Kənd əhalisinin sosial müdafiəsi, sosial müdafiə sisteminin tərkib hissəsi olmaqla vahid sistemin regional xüsusiyyətlərini özündə əks etdirir. Kənd əhalisi özünəməxsus demoqrafik tərkibə, təbii artıma və məşğulluq səviyyəsinə və sahəsinə görə fərqləndiyi üçün onun sosial müdafiəsi qlobal və lokal xüsusiyyətlər kəsb edir. Ilkin növbədə kənd əhalisinin sosial

müdafiə hüquqları və onların yaşayışı üçün potensialın qiymətləndirilməsi əhalinin həyat səviyyəsinin formalaşması dinamikasını müəyyənləşdirir.

Əhalinin gəlirlərinin artımı, xərclərinin artımına, pullu təhsil üçün əkilən fərdi xərclərə imkanları artırır.[18] Belə ki, müasir şəraitdə təhsil hüquqları hamı üçün eyni olduğu halda onların maliyyə mənbələri, müxtəlif təsərrüfat subyektləri və fərdi xərclər hesabına ödənilir. Təhsil sistemi kənddə bütövlükdə təhsilin tərkib hissəsidir. Daha çox ümumi təhsil əsas rol oynayır. Ümumi təhsil müəssisələrinin kənd yerlərində təşkili və idarə ounması, təhsil müəssisələrinin işçilərinin əmək haqqı, gəlirlər və həmçinin təhsil müəssisələrinin maddi-texniki təminatı rol oynayır.

Naxçıvan Muxtar Respublikasında mineral suların emalı, satışı və onun ixracatı üçün potensial yaradır. Bu sahələrin infrastrukturu yeni iş yerlərinin açılmasına və xarici resursların investisiya mənbəyi kimi istifadəsinə səbəb olur. Xarici ölkələrini Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi hava yolları və Iran, Türkiyyə Respublikası ilə baş verir. Ona görə də qədim Ipək yolunun Iran və Azərbaycandan keçməsi şərq ölkələri ilə əlaqənin Iran və Türkiyə ilə əlaqəsinin Naxçıvan infrastrukturu ilə təşkili mühüm əhəmiyyət kəsb edir.

Kənddə dövlət himayəsinin əsas istiqamətləri aşağıdakılardır:

- kənd təsərrüfatının inkişafı və kənd əhalisinin ərzaq təhlükəsizliyinin qorunması;
- kənddə təhsil və səhiyyə xidmətinin dövlət təminatı sosial-hüquq normalarına uyğun olaraq tənzimlənməsi;
- kənddə sahibkarlığa kömək məqsədi ilə yaradılan maliyyə və maddi fondlar hesabına əhaliyə qısamüddətli kreditlərin verilməsi və yaxud lizinq xidməti kimi abadlıqla təchizatı;
- kənd əhalisinin sosial müdafiəsi sistemində hər nəfərin fərdi gəlirlərini artırmaq, onların minimum istehlak büdcəsini təşkil etmək üçün ünvanlı sosial yardım yolu ilə əlavə vəsaitlər ayırmaq;
- kənd əhalisinin mülkiyyət hüquqlarının qorunması, onların əmlak və pul vəsaitlərinin inflyasiya şəraitində indeksasiyanın keçirilməsi və əmanətlərinin bərpasının təşkili və idarə olunması;
- respublikada və ayrı-ayrı regionlarda ərazi komplekslərinin təbii sərvətlərin və kommunikasiya xidmətlərinin bərpası və tələbata uyğun istifadəsi mexanizmlərinin yaradılması;

---

[18] Ə.Qasımov. Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2005, 354 s.

- qlobal iqtisadi və sosial siyasətin regional nəticələrini, regionların dinamik və tarazlı inkiaf meyllərini təmin edən tarazlı iqtisadi və sosial siyasətin təşkili və idarə olunması.

Bu istiqamətlər müasir şəraitdə hər bir iqtisadi və sosial mexanizmin təşkili metodlarının təkmilləşməsini tələb edir.

Dissertasiya işinin nəticələri aşağıdakı məqalə və konfranslarda nəşr olunmuşdur.


1. Niftəliyev R.H. "Kənddə həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılması mexanizmləri" Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemlərinə həsr edilmiş respublika elmi-praktiki konfransın materialları. Az.ETKTİ və Tİ., Bakı-2009, s. 111-116.
2. Niftəliyev R.H. "Kəndin sosial-iqtisadi inkişafının tədqiqi metodologiyası" Elmi əsərlər., Az.ETKTİ və Tİ., Bakı-2009, s. 139-145.
3. Нифталиев Р.Г. «Основные направления социально-экономического развития в сельской местности Азербайджанской Республики»., Аграрно-экономическая наука и технологии №1(6)., Тбилиси, 2010. , стр. 17-21.
4. Niftəliyev R.H. "Kəndin inkişaf problemləri və perspektiv meylləri" İqtisad elmləri: Nəzəriyyə və Praktika, (Rüblük nəzəri və elmi-praktiki Jurnal) N-1., Bakı, 2010, s. 267-274.
5. Niftəliyev R.H. "Kənd əhalisinin demokrafik problemləri və məskunlaşmasının təşkili" Maliyyə və Uçot N-5., Bakı-2010, s. 41-48.
6. Niftəliyev R.H. "Kənd təsərrüfatının inkişafı və Naxçıvanda kəndin sosail-iqtisadi inkişaf istiqamətləri" AMEA-nın İqtisadiyyat İnstitutunun "Elmi əsərlər" № 3, 2014., Bakı, 2014, s. 230-236.
7. Нифталиев Р.Г. «Демографические процессы и проблемы организации урбанизации сельского населения» Международный технико-экономический журнал № 4, Москва, 2011, стр. 27-30.
8.Niftəliyev R.H. – "Kənd əhalisinin sosial təminat səviyyəsinin təhlili və onun yüksəldilməsi" Ümummilli lider H.Ə.Əliyevin 90-illik yubileyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans., Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri XVIII cild., Bakı-2013, s. 370–376

**Рафаил Гусейн оглу Нифталиев**

## Проблемы социально-экономического развития села (на примере Нахичеванской Автономной Республики)

## РЕЗЮМЕ

В диссертации исследуются социально-экономические проблемы развития села на материалах Нахичеванской Автономной Республики. Диссертация состоит из введения, трех глав и заключения.

Во введение обосновывается актуальность темы, методология изучения и значимость работы.

В первой главе исследуются проблемы социально-экономического развития экономического региона на примере Нахичеванской Автономной Республики.

Во второй главе работы исследуются основные направления социально-экономического развития села. Рассматривается рост уровня жизни населения села, анализируется динамика изменения и тенденций развития социальной инфраструктуры села. Проблемы сельского хозяйства и развития села исследуется взаимосвязано.

Третья глава работы посвящена перспективам развития села и путей управления фактором развития села.

В диссертации исследуются факторы и даются модели оценки перспективного развития.

В заключении даются выводы и предложения на прогнозирование социально-экономического развития.

**Rafail Huseyn oglu Niftaliyev**

**Problems of socio-economic development of rural areas (for example, the Nakhchivan Autonomous Republic)**

## SUMMARY

The dissertation examines the socio-economic problems of rural development on materials of Nakhchivan Autonomous Republic. The thesis consists of an introduction, three chapters and a conclusion.

In the introduction the relevance of the topic, methodology of learning and the importance of work.

The first chapter deals with the problems of socio-economic development of the economic region on an example of the Nakhchivan Autonomous Republic.

In the second chapter examines the main directions of socio-economic development of the village. We consider the growth of living standards of the village, analyzes the dynamics of changes and trends in the development of social infrastructure in rural areas. Problems of Agriculture and Rural Development examines interconnected.

The third chapter is devoted to the prospects of rural development and ways of controlling factor in the development of the village.

The thesis examines the factors and are forward-looking development model.

In conclusion, given the conclusions and proposals on forecasting the socio-economic development.

Çapa imzalanmışdır: 24.04.2015
Formatı: 60/84, 16/1
Sifariş: 77
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.***

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖНСКИЙ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ
ИНСТИТУТ ЭКОНОМИКИ И ОРГАНИЗАЦИИ СЕЛЬСКОГО
ХОЗЯЙСТВА**

***На правах рукописи***

**РАФАИЛ ГУСЕЙН ОГЛЫ НИФТАЛИЕВ**

# ПРОБЛЕМЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ СЕЛА (НА ПРИМЕРЕ НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ)

**Специальность: 5312.01- Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени
доктора философии по экономике**

**НАХЧЫВАН – 2015**